**Audit**

***Mehdi Babayev***
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Tətbiq olunan mühasibat sisteminin auditin keyfiyyətinə təsiri

Hazırda Azərbaycanda fəaliyyət göstərən qanunla auditdən məcburi qaydada keçməli olan təsərrüfat subyektlərinin əksəriyyətində mühasibat proqramı kimi ənənəvi maliyyə hesabatlarının hazırlanmasına əsaslanan 1C mühasibat proqramından və ya sadə EXCEL cədvəllərindən istifadə olunur. Bu proqramın imkanları bir başa MHBS-ə müvafiq maliyyə hesabatını hazırlamağa qadir deyildir. MHBS-ə uyğun maliyyə hesabatları iqtisadi qərarların qəbul edilməsi üçün faydalı olan məlumatların təmin edilməsi məqsədilə hazırlanır. Sözü gedən proqramda maliyyə açıqlamaları əsasən məhduddur, MHBS ilə əhatə olunan sahələr əks etdirilmir və ya başqa cür təfsir olunur. Belə maliyyə hesabatlarının informasiya dəyəri və keyfiyyəti çox aşağı olduğuna görə də nəticədə maliyyə hesabatlarının potensial istifadəçilərinin daha geniş ehtiyacları ödənilmir.

1C proqramını tətbiq edən mühasiblər məcburdurlar ki, proqramın verdiyi son hesabat forması olan mühasibat hesablarının illik dövriyyə balansı cədvəli əsasında yeni Standartlara uyğun maliyyə hesabatlarını tərtib etsinlər. Lakin yeni mürəkkəb mühasibat uçotu tələblərinə müvafiq maliyyə hesabatını hazırlamaq qabiliyyətində olan və texniki cəhətdən ixtisaslı peşəkar mühasiblər azdır. Müəssisələrin çoxunda olan maliyyə işçiləri MHBS-ə müvafiq maliyyə hesabatını tam olaraq hazırlamağa qadir deyildir. Yeni Standartlara uyğun maliyyə hesabatlarını hazırlamaqda çətinlik çəkən mühasiblər isə bu işi maliyyə ilinin sonunda dəvət etdiyi auditora tapşırmağa üstünlük verirlər. Maliyyə hesabatlarının hazırlanması ilə məşğul olan auditor audit aparılmasından çox hesabatların hazırlanması işini görməsi auditin keyfiyyətinə mənfi təsir göstərə bilər. Auditor auditin keçirilməsindən əvvəl MHBS maliyyə hesabatlarını hazırlamağa və ya ən azı düzəlişlər etməyə başlayır. Bu, auditorun müstəqilliyinə yaxşı təsir göstərə bilməz. Auditorun özü tərəfindən hazırlanan maliyyə hesabatının göstəricilərinin audit etməsi məsələsi məntiqcə həmin hesabata etibar edilməsini şübhə altına qoyur. Belə olan halda da aparılan auditin keyfiyyətinə inam azalmış olur. Ona görə də maliyyə hesabatlarının müəssisələrin özləri tərəfindən düzgün hazırlanması və auditora təqdim edilməsi aparılan auditin keyfiyyəti üçün vacib məsələdir.

Ümumiyyətlə, müəssisələrə dəvət olunan auditor firmalarının (və sərbəst auditorların) peşəkarlığı və müəssisələrdə tətbiq olunan mühasibat uçotu standartlarından asılı olaraq hazırda həyata keçirilən auditin keyfiyyətini üç kateqoriya üzrə bölüşdürmək olar:

· ***Yüksək keyfiyyətli audit.***

Beynəlxalq audit şirkətləri və ya həmin şirkətlərin yerli nümayəndələri tərəfindən müəssisələrdə aparılan auditlər yüksək keyfiyyətli auditlər hesab edilir. Belə audit zamanı sifarişçi müəssisələr MHBS-ə uyğun yaxşı keyfiyyətli maliyyə informasiyası əldə edirlər. Həmçinin belə müəssisələr keyfiyyətli audit əldə etmək üçün tələb olunan qiyməti ödəməyə imkanları vardır. Məsələn, ictimai əhəmiyyətli qurumlar, eləcə də bank və sığorta sektoruna aid müəssisələrdə aparılan auditlər müsbət keyfiyyəti ilə seçilirlər.

· ***Orta keyfiyətli audit.***

Azərbaycanda əhəmiyyətli sayda hüquqi şəxslər vardır ki, onların keyfiyyətli maliyyə informasiyası əldə etmək istəyinin olmasına baxmayaraq, mühasibat uçotunda MHBS-ləri tətbiq və ya tam tətbiq etmədiklərinə, həmçinin maliyyə hesabatları, daxili nəzarət və maliyyə idarəetməsi təcrübələri bu müəssisələr daxilində hələ tam inkişaf etmədiyinə görə, keyfiyyətli audit rəyi əldə edə bilmirlər. Belə müəssisələrdə tətbiq olunan mühasibat proqramları və peşəkarlığın aşağı olması səbəbindən, mühasibat işçilərinə MBHS-nin əsas tələblərinin bəziləri faktiki olaraq məlum deyildir. Məsələn, pul vəsaitinin dövriyyəsi hesabatları tələb edilmir və hazırlanmır. Bundan başqa, Standartlar tələb edir ki, əsas vəsaitlərin amortizasiya olunan dəyərinin amortizasiyası onun faydalı ömrü ərzində aparılmalıdır. Mövcud praktika verginin hesablanması məqsədi üçün tələb olunan amortizasiya dərəcələrinin tətbiq edilməsindən ibarətdir, bu da əsas vəsaitlərin faydalı ömrünü mütləq əks etdirmir və sair. Bu cür maliyyə informasiyaları ilə təmin olunan mühasibat sistemi keyfiyyətli audit aparmağa imkan verə bilməz. Həmin müəssisələrdə keyfiyyətli auditin təmin

olunması üçün MBHS-nın tələblərinə cavab verən mühasibat proqramlarının tətbiqinə və mühasibat işçilərinin peşəkarlaşmasına ehtiyac vardır.

· ***Aşağı keyfiyyətli audit.***

Kiçik sahibkarlıq subyektləri və ya MHBS-ə müvafiq maliyyə hesabatlarını hazırlamağa məcbur olmayan və beynəlxalq audit şirkətləri şəbəkələri, həmçinin peşəkar yerli audit şirkətləri (və ya sərbəst auditorlar) tərəfindən audit edilməyən digər müəssisələrdə aparılan audit zamanı aşağı keyfiyyətli maliyyə informasiyası alınır. Belə müəssisələr yalnız qanun qarşısında öhdəliklərini yerinə yetirmək üçün audit həyata keçirirlər və auditə təqdim olunan maliyyə informasiyalarının əsas məqsədi vergi hesablamalarından ibarət olur. Həmin müəssisələrdə aparılan uçot Vergi Məcəlləsinin prinsipləri və qaydalarını əks etdirir. Ona görə də bu cür müəssisələr audit xidmətini ən ucuz qiymətlə əldə etməyə çalışır. Aşağı qiymətə görülən auditin əvəzində isə keyfiyyətli audit işini gözləmək mümkün deyildir.